## *Aysel Nəsirzadə*

***

Hardadı o
quş civiltiləriylə
açılan səhər?
Günəş doğmadan öncə,
insanlar oyanmadan,
düşmədən xəyallarımın üstünə
boz-bulanıq kölgələr.



## Bəxtinə düşən deyiləm

...gözlərin sisli orman,
gözlərin bulanıq çay.
...Mən-üfüqdə batan Günəş,
Sən-təzəcə doğulan Ay.

...vaxtsız gələn qonağım,
vaxtına düşən deyiləm.
...mən özgənin qismətiyəm,
bəxtinə düşən deyiləm.

...əlimdən mədət ummasın
yanağından axan yaşlar.
...durma yolumun üstündə,
yolumun öz yoldaşı var.

## Ruh, sevdalı göylərə

...ölümlə yaşam arası
incə bir cizgidə
yeriyir insan.

...gözləri arxada,
ayaqları öndə.
Əl uzadır sevincə,
yenik düşür kədərə.

Vücuduna yer talib,
ruh-sevdalı göylərə.

Türküstan.- 2021.- 6-12 iyul.- S.15.